

**Prezident İlham Əliyev səhiyyə ilə bağlı bir sıra qanun və fərmanlar imzalamışdır**

2



**Milli standartlaşdırma sistemi üzrə Dövlət Proqramı qəbul edildi**

3



**Bakıda COVID-19 xəstələrinə yardım edən həkimlərin maaşına əlavənin müddəti uzadılıb**

5


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 01-02 (761) 31 yanvar 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


# «Nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz»

*Prezident İlham Əliyev Davosda Çin televiziya kanalına müsahibə verib*



2

## «Milli Məclis» jurnalında səhiyyə naziri Teymur Musayevlə müsahibə




6-7

## Səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişafı müzakirə edildi



8




## «Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər edildi

2

## Qazilərə, müharibə iştirakçılarına və şəhid ailələri üzvlərinə psixoloji dəstək göstərilir



10

### *Aforizm*

*Biz qışqırıqla doğulur, inilti ilə ölürük.*
*Bizə yalnız gülüşlə yaşamaq qalır.*

*Viktor Hüqo*

# «Nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz»

***Prezident İlham Əliyev Davosda Çin televiziya kanalına müsahibə verib***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunda iştirak edərkən Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib.

Söhbət zamanı dövlət başçısı səhiyyə ilə bağlı bəzi məqamlara da toxunub.

Müxbir xatırladıb ki, Dünya İqtisadi Forumunun mövzusu «Parçalanmış dünyada əməkdaşlıq»dır: «Bu mövzunun seçilməsinin səbəbi ondan ibarətdir ki, əməkdaşlıq etmək çətindir. Bu mənada, ölkənizin lideri olaraq və hazırda dünyanın çağırışlarına qarşı konstruktiv rol oynayarkən Siz əməkdaşlığın mənasını nədə görürsünüz? Əməkdaşlığı çətinləşdirən nədir?»

Prezident İlham Əliyev bildirib ki, buna bəzi ölkələrin ambisiyaları, regionda və ya dünyada liderlik uğrunda mübarizə, öz potensialının düzgün hesablanmaması, qarşıdakı opponentin olduğundan aşağı qiymətləndirilməsi səbəb olur: «Bu, etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxarır. Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz. Nə qədər çox versəniz, nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz. Dünya bunun üzərində qurulub».

Müxbirin «Bu, həyat kimidir» sözlərinə cavab olaraq Prezident İlham Əliyev siyasətlə həyatın çox oxşar olduğunu deyib, ölkəmizin Qoşulmama Hərəkatının sədri kimi səylərini misal çəkib: «Azərbaycan artıq dördüncü ildir ki, Qoşulmama Hərəkatına sədrlik edir. Biz yekdilliklə seçilmişik və bizim sədrliyimiz yekdilliklə daha bir il müddətinə, bu ilin sonuna kimi uzadılıb. Bu müddət ərzində biz, həqiqətən də, nümayiş etdirdik ki, bu hərəkatın səsinin eşidilməyini istəyirik, biz bu hərəkatın dünya arenasında öz yerini tutmağını istəyirik. Çünki böyük güclər arasında qütbləşmə açıq-aşkardır. Böyük güclərin maraqları arasındakı uçurum, ola bilsin ki, kiçilməyəcək. Ona görə də faktiki olaraq alternativ kimi yaradılmış, lakin sonradan müəyyən mənada potensialını itirmiş Qoşulmama Hərəkatının böyük potensialı var, çünki ölkələrin bu və ya digər dərəcədə eyni keçmişləri var, eyni problemləri var. Onların əksəriyyəti müstəmləkə olub və onlar başqalarının əsarəti altında yaşamağın nə demək olduğunu bilirlər.

Biz pandemiya dövründə 80-dən artıq ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərmişik. Biz bunu könüllü olaraq, hər hansı təmənna güdmədən etdik. Biz, sadəcə, hesab etdik ki, bizim belə imkanımız varsa, bunu etməliyik. 1990-cı illərin əvvəllərində elə dönəm var idi ki, ölkəmizin köməyə ehtiyacı olub. O zaman ölkəmiz yoxsul idi və bir çox sosial problemlərlə üzləşmişdi. Yəni biz kasıblığın nə olduğunu yaxşı bildiyimiz üçün kömək əlimizi uzatdıq. Bu ideologiya üstünlük təşkil etsə, dünya daha təhlükəsiz olar».

Müxbir məsələnin bu cür qoyuluşunu təqdir edib.

## «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Beynəlxalq tibbi sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Beynəlxalq tibbi sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

## «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında taunun sərhədyanı təbii ocaqları olan ərazilərdə epidemioloji salamatlığın təmin olunması haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında taunun sərhədyanı təbii ocaqları olan ərazilərdə epidemioloji salamatlığın təmin olunması haqqında Saziş» təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

# «Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasının Vergi Məcəlləsində, «Sosial sığorta haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Tibbi sığorta haqqında» və «Daşınar əmlakın yüklülüyü haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Qanun imzalayıb.**

Sənəddə qeyd olunur ki, Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci, 11-ci, 15-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq, adıçəkilən məcəllədə və qanunlarda müəyyən dəyişikliklər edilməsini qərara alıb.

O cümlədən, Qanunun 4-cü maddəsinə əsasən, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa bəzi dəyişikliklər edilib. Belə ki, sənədə aşağıdakı məzmunda 15-5.2.3-cü və 15-5.2.4-cü maddələr əlavə olunub:

«15-5.2.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növlərini fərdi qaydada (muzdlu işçi cəlb etmədən) «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz» almaqla həyata keçirmək;

15-5.2.4. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fəaliyyət növlərini fərdi qaydada (muzdlu işçi cəlb etmədən) «Fərqlənmə nişanı» almaqla həyata keçirmək».

Həmçinin 15-11.4-cü maddəyə «sığorta haqqı» sözlərindən sonra «(Azərbaycan Respublikası Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan və Azərbaycan Respublikasının ərazisində fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fiziki şəxslər tərəfindən ödənilən sığorta haqqı istisna olmaqla)» sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilib:

«Azərbaycan Respublikası Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər tərəfindən icbari tibbi sığorta haqqı «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz» alınarkən, Azərbaycan Respublikasının ərazisində fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fiziki şəxslər tərəfindən isə «Fərqlənmə nişanı» alınarkən ödənilir».

Dövlət başçısının imzaladığı digər bir sənəd ««Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanundur.

Milli Məclisin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq qəbul etdiyi həmin sənədə əsasən, «Tibbi sığorta haqqında» Qanuna aşağıdakı məzmunda 15-21.1-1-ci maddə əlavə edilib:

«15-21.1-1. Bu Qanunun 15-21.1-ci maddəsində nəzərdə tutulan icbari tibbi sığorta fondunun büdcəsi hər il üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunur».

Prezident İlham Əliyev ««Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 685-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» 2019-cu il 31 yanvar tarixli 502 nömrəli və «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Fərman verib.

Sənəddə «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli Qanununun qüvvəyə minməsi ilə əlaqədar müəyyən edilir ki, Qanunun 15-21.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Həmçinin həmin maddədə «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

Yeni Fərmanla Azərbaycan Respublikası Prezidentinin müvafiq mövzuda 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında və «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi»ndə də müəyyən dəyişikliklər edilib.

# Milli standartlaşdırma sistemi üzrə Dövlət Proqramı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

Sənəddə bildirilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndləri rəhbər tutularaq, «Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanının 1.3-cü bəndinin icrası və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, o cümlədən Avropa İttifaqının direktivləri əsasında milli texniki reqlamentlərin və beynəlxalq standartlar əsasında istinad edilmiş standartların qəbulu məqsədilə «Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı» təsdiq edilir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi İqtisadiyyat Nazirliyinə həvalə olunur. Bu nazirlik Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini isə İqtisadiyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

«Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı» qlobal trendləri, ölkəmizdə müvafiq sahədə mövcud vəziyyəti, hədəf göstəricilərini, məqsədləri, prioritet istiqamətləri, maliyyələşmə mənbələrini və tədbirlər planını özündə ehtiva edir.

Proqramda insan sağlamlığı ilə bağlı bəzi məsələlər də yer alıb.

Belə ki, sənədin «Prioritet istiqamətlər» bölməsinin «Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, texniki tənzimləmə sisteminin formalaşdırılması» bəndində insan sağlamlığını təhlükəli qidalardan (əsasən qida məhsullarındakı qida əlavələrindən, çirkləndiricilərdən, zəhərli maddələrdən və ya xəstəlik törədən orqanizmlərdən yaranan risklərdən), heyvan və insan sağlamlığını heyvan xəstəliklərindən, təhlükəli yemlərdən, bitki sağlamlığını zərərli orqanizmlərdən, həmçinin zərərvericilər nəticəsində yarana biləcək digər zərərdən qorumaq məqsədilə məhsullara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair standartlaşdırma üzrə normativ sənədlərdən məcburi tələblərin çıxarılması nəzərdə tutulur.

«Texniki tənzimləmənin şamil olunduğu malların təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması» prioritet istiqaməti üzrə isə insan sağlamlığı üçün təhlükəli hesab edilən texniki tənzimləmənin şamil olunduğu malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı qanunvericilik bazasının formalaşdırılması planlaşdırılır.

Dövlət Proqramına dair Tədbirlər Planında Səhiyyə Nazirliyinin icraçılardan biri olduğu bəndlər var. Bu tədbirlərin hər birində əsas icraçı orqan İqtisadiyyat Nazirliyidir, Səhiyyə Nazirliyi isə digər icraçılardan biridir.

«Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla texniki tənzimləmə sisteminin formalaşdırılması» bəndi üzrə «Texniki tənzimləmənin şamil olunduğu malların əhatə dairəsinin müəyyənləşdirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi» tədbiri 2023-cü ildə yerinə yetirilməlidir. Onun icraçıları arasında Fövqəladə Hallar, Səhiyyə, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Energetika, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Dövlət Gömrük Komitəsi və Qida Təhlükəsizliyi Agentliyi var. Tədbir texniki reqlamentlərin layihələrinin hazırlanması məqsədilə texniki tənzimləmənin şamil olunduğu malların siyahısına dair aidiyyəti dövlət orqanlarından rəy və təkliflərin əldə edilməsini, bu təkliflər nəzərə alınmaqla texniki tənzimləmənin şamil olunduğu malların siyahısının hazırlanmasını, həmin malların siyahısının təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsini nəzərdə tutur.

«Texniki tənzimləmənin şamil olunduğu mallara dair texniki reqlamentlərin qəbulu» tədbirinin icraçıları arasında Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB də yer alır. 2023-2025-ci illəri əhatə edən bu tədbirin nəticə indikatorları texniki tənzimləmənin şamil olunduğu malların siyahısına uyğun olaraq Avropa İttifaqında qüvvədə olan direktivlərin müəyyən edilməsi, həmin mallara dair dövlət siyasətini və tənzimləməsini həyata keçirən aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən müvafiq texniki reqlamentlərin layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi, həmin malların siyahısına uyğun olaraq, Avropa İttifaqının direktivləri əsasında texniki reqlamentlərin qəbuludur.

Tədbirlər planının daha bir bölməsi «Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması» adlanır. Bu bölmənin «Texniki tənzimləmənin şamil olunduğu mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair standartlaşdırma üzrə normativ sənədlərdən məcburi tələblərin çıxarılması» (2023-2025), «Standartlaşdırma üzrə dövlət fondunda mövcud olan və istinad standartları kimi istifadə olunacaq standartların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi» (2023-2024), «Milli standartlaşdırma çərçivəsinin hazırlanması» (2023), «Beynəlxalq təcrübə nəzərə alınmaqla, standartlaşdırma üzrə texniki komitələrin fəaliyyətinin təkmilləşdirilməsi» (2023-2025) tədbirlərində Səhiyyə Nazirliyi icraçılardan biridir. Sonuncu bəndin icrasına İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB də cəlb olunacaq.

«Texniki tənzimləmə sahəsində infrastruktur təminatının yaxşılaşdırılması» bölməsi üzrə «Texniki tənzimləmə sahəsində laboratoriyaların diaqnostik qiymətləndirilməsinin aparılması» (2023), «Texniki tənzimləmə sahəsində laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, müasir tələblərə cavab verən yeni laboratoriyaların yaradılması və maddi-texniki təchizatının təmin edilməsi» (2023-2025) tədbirlərinin icrasında da Səhiyyə Nazirliyi iştirak edəcək.

Tədbirlər planında həyata keçirilməsində Səhiyyə Nazirliyinin iştirakı nəzərdə tutulan sonuncu tədbir «Texniki tənzimləmənin şamil olunduğu malların təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması» bölməsinin «İnsan sağlamlığı üçün təhlükəli hesab edilən texniki tənzimləmənin şamil olunduğu malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı qanunvericilik bazasının formalaşdırılması» (2023-2024) bəndidir. Bu tədbir üzrə texniki reqlamentlərin tələblərinə cavab verməyən malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı təkliflər hazırlanması, onların aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması, eləcə də bununla bağlı qanunvericilik bazasının formalaşdırılması planlaşdırılır.

# Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasının monitorinqi aparılacaq

**Nazirlər Kabineti «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin monitorinqi, eləcə də bu Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamının icrasının təmin edilməsi ilə əlaqədar qərar qəbul edib.**

Azərbaycanın Baş naziri Əli Əsədov bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə tapşırıq verilir ki, Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasına effektiv nəzarət etmək məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə 3 ay müddətində «İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı» formalaşdırsın.

Portalda Nazirlər Kabinetinin təqdimatı əsasında, Proqramda qeyd olunmuş tədbirlərlə bağlı icraçı orqanlar, iqtisadi rayonlar, şəhər və rayonlar, habelə obyektlər üzrə icra müddətləri, onların illər üzrə bölgüsü, layihələrin texniki-iqtisadi, ekspertiza və s. məlumatları və digər zəruri göstəriciləri təsnifatlandırmaqla, mövcud vəziyyət barədə informasiyaları, aidiyyəti foto və videomateriallar, habelə iri layihələrə münasibətdə birbaşa (onlayn) kamera müşahidəsini təmin edən sistemdə hesabatlılığa imkan verən müvafiq bölmələr yaradılmalıdır.

Mərkəzə tapşırılıb ki, Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini aparsın, nəticəsi barədə məlumatları ildə iki dəfə – hər ilin mart (2024-cü ildən) və sentyabr aylarının 25-dək Nazirlər Kabinetinə təqdim etsin. Həmçinin sənəddə nəzərdə tutulmuş tədbirlərin icrasının qiymətləndirilməsi aparılmalı, nəticəsi barədə məlumatlar 2025-ci və 2027-ci illərin mart ayının 25-dək Nazirlər Kabinetinə təqdim edilməlidir.

Proqramda nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanlar (qurumlar) həmin bənd üzrə məlumatları ayda bir dəfə, hər ayın 5-dək Portala yerləşdirməlidirlər.

Dövlət Proqramındakı tədbirlərin aidiyyəti üzrə icrası məqsədilə əsas icraçı qurumların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxslər təyin edilməli və bu barədə məlumat Nazirlər Kabinetinə təqdim olunmalıdır.

Əsas icraçı qurumlar icra müddəti iki il və daha artıq olan tədbirlərin nəticə indikatorları üzrə hədəf göstəriciləri müəyyən edilməklə, həmin müddətlər çərçivəsində illər üzrə bölgüsünü Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Əsas icraçılar həmçinin Proqramın həyata keçirilməsi ilə bağlı görülən işlər və nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə monitorinqin və qiymətləndirmənin aparılmasına dair məlumatları İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə ünvanlanması üçün Nazirlər Kabinetinə ildə iki dəfə hər ilin yanvar (2024-cü ildən) və iyul aylarının 25-dək təqdim etməlidirlər.

# Ölümün qeydə alınması qaydasının pozulmasına görə cərimələr tətbiq olunacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanun imzalayıb.**

Sənədə əsasən, Məcəlləyə aşağıdakı məzmunda 562-1-ci maddə əlavə edilib:

«Maddə 562-1. Ölümün qeydə alınması qaydasının pozulması

562-1.1. Tibb müəssisəsi tərəfindən ölüm haqqında məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə —

vəzifəli şəxslər yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

562-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ölüm haqqında məlumatın informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə —

vəzifəli şəxslər yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir».

# İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 15-21.1-1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin gəlirləri 2 393 243 970,0 manat, xərcləri 2 393 243 970,0 manat məbləğində təsdiq edilsin.

**2.** Müəyyən edilsin ki, 2023-cü ildə icbari tibbi sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Dövlət büdcəsindən ayırmalar | 1 263 820 170,0 |
| 2.1.1. | Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması | 1 134 108 420,0 |
| 2.1.2. | Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait | 129 711 750,0 |
| 2.2. | İşəgötürən və işçi tərəfindən icbari tibbi sığorta üzrə ödənilən sığorta haqları | 764 665 340,0 |
| 2.2.1. | Büdcədən maliyyələşən təşkilatlar üzrə | 276 153 340,0 |
| 1. | İşəgötürən | 138 076 670,0 |
| 1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 6 900 000,0 |
| 2. | İşçi | 138 076 670,0 |
| 2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 6 900 000,0 |
| 2.2.2. | Neft-qaz sahəsində fəaliyyəti olan və ya qeyri-büdcə dövlət sektoruna aid edilən sahələr üzrə | 190 792 000,0 |
| 1. | İşəgötürən | 95 396 000,0 |
| 1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 450 000,0 |
| 2. | İşçi | 95 396 000,0 |
| 2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 450 000,0 |
| 2.2.3. | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə | 297 720 000,0 |
| 1. | İşəgötürən | 148 860 000,0 |
| 1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 050 000,0 |
| 2. | İşçi | 148 860 000,0 |
| 2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 050 000,0 |
| 2.3. | Fiziki şəxslərdən sığorta haqları üzrə daxilolmalar | 12 600 000,0 |
| 2.3.1. | Vergi uçotuna alınmış fiziki şəxslərdən (fərdi sahibkarlardan, xüsusi notariuslardan, vəkillər kollegiyasının üzvlərindən) | 12 100 000,0 |
| 1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 700 000,0 |
| 2.3.2. | Mülki hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərdən | 500 000,0 |
| 1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 10 000,0 |
| 2.4. | Avtomobil benzininin, dizel yanacağının, maye qazın Azərbaycan Respublikasının ərazisinə idxalı və daxili istehlakı, alkoqollu içkilərə və tütün məhsullarına tətbiq olunan aksizlər üzrə daxilolmalar | 122 334 660,0 |
| 2.4.1. | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının, maye qazın hər litrinə görə daxilolma | 92 226 240,0 |
| 2.4.2. | Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 4 191 200,0 |
| 1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 35 000,0 |
| 2.4.3. | Pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 2 886 600,0 |
| 1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 35 000,0 |
| 2.4.4. | Siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 22 747 500,0 |
| 1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 350 000,0 |
| 2.4.5. | Energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 283 120,0 |
| 2.5. | Digər daxilolmalar | 13 900 000,0 |
| 2.5.1. | İcbari tibbi sığorta üzrə sərbəst vəsaitin idarə olunması üzrə gəlirlər | 12 500 000,0 |
| 2.5.2. | "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar | 1 400 000,0 |
| 2.6. | Əvvəlki illərdə icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ | 215 923 800,0 |

3. Müəyyən edilsin ki, icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs üzrə xərclər | 2 171 239 633,0 |
| 3.1.1. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Aparatının (filial, idarə) saxlanma xərcləri | 31 500 000,0 |
| 3.1.2. | "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin xərcləri | 71 439 630,0 |
| 1. | Dövlət büdcəsinin vəsaiti hesabına tam təqvim ili üçün adambaşına ayrılmış vəsait | 51 509 630,0 |
| 2. | İşəgötürən və işçi tərəfindən ödənilən sığorta haqları, digər sığorta haqları, habelə digər maliyyə mənbələrindən daxilolmalar hesabına ayrılmış vəsait (Naxçıvan Muxtar Respublikası üzrə daxilolmalar hesabına) | 19 930 000,0 |
| 3.1.3. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin saxlanma xərcləri | 30 000 000,0 |
| | o cümlədən: | |
| 1. | Aparatın saxlanma xərcləri | 25 500 000,0 |
| 2. | "İnnovasiya və Təchizat Mərkəzi" publik hüquqi şəxsin saxlanma xərcləri | 4 500 000,0 |
| 3.1.4. | İcbari tibbi sığorta ödənişləri və dotasiya məbləği, cəmi | 1 778 778 570,0 |
| | o cümlədən | |
| 1. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə xərclər | 1 653 778 570,0 |
| | o cümlədən: | |
| 1.1. | Dərman, sarğı ləvazimatının və materiallarının alınması xərcləri | 128 000 000,0 |
| 2. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyində olmayan tibb müəssisələrindən tibbi xidmətlərin alışı üzrə sığorta ödənişləri | 150 000 000,0 |
| 3.1.5. | Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait | 129 711 750,0 |
| 3.1.6. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin maddi-texniki bazasının, kadr təminatının və digər xərclərin maliyyələşdirilməsi | 129 809 683,0 |
| 1. | Azad olunmuş ərazilərdə mobil hospitalların tikintisi, quraşdırılması və zəruri avadanlıqla təchizatı | 3 000 000,0 |
| 2. | Azad olunmuş ərazilərdə mobil hospitalların saxlanma xərcləri | 4 000 000,0 |
| 3. | Tibb müəssisələrində daşınmaz əmlakın əsaslı təmiri, kənd yerlərində modul tipli tibb məntəqələrinin tikintisi və quraşdırılması | 50 000 000,0 |
| 4. | Tibb müəssisələri üçün zəruri tibbi avadanlıq və inventarın alınması | 40 000 000,0 |
| 5. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin inzibati binası üçün inventar və avadanlığın alınması | 500 000,0 |
| 6. | Xidməti və xüsusi təyinatlı nəqliyyat vasitələrinin alınması | 18 000 000,0 |
| 7. | Tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı xərclər | 10 000 000,0 |
| 8. | İcbari tibbi sığorta sistemi üçün İT infrastrukturunun qurulması ilə bağlı xərclər | 9 309 683,0 |
| | o cümlədən: | |
| 8.1. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin məlumat mərkəzlərində informasiya təhlükəsizliyinin qorunması və elektron sistemlərin davamlı fəaliyyətinin təmin edilməsi (qeyri-maddi aktivlərin və avadanlığın alınması, quraşdırılması, sazlanması, proqram təminatı, texniki dəstək və lisenziyalar) xərcləri | 6 309 683,0 |
| 8.2. | Digər | 3 000 000,0 |
| 9. | Sair xərclər | 40 000 000,0 |
| 3.2. | Sığorta ehtiyatları | 81 904 337,0 |
| 3.3. | Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri | 70 000 000,0 |
| 3.4. | Bank xərcləri | 100 000,0 |

*(Davamı 5-ci səhifədə)*

## İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(Əvvəli 4-cü səhifədə)*

**4.** «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin xərclər smetasında nəzərdə tutulmuş məbləğlə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin (bundan sonra - Agentlik) həmin qurumlara ödədiyi sığorta ödənişlərinin məbləği arasında kəsir yarandığı halda, həmin kəsir aylıq əsaslarla icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.4-cü yarımbəndinin 1-ci abzasında nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Agentlik tərəfindən tibb müəssisələrinin smetaları əsasında ödənilən vəsaitin xərclənməmiş hissəsi büdcə ilinin sonunadək Agentliyə geri qaytarılır.

**5.** Naxçıvan Muxtar Respublikası üzrə:

5.1. icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.2-ci yarımbəndinin 1-ci abzasında Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Agentlik hər ay üçün bərabər hissələrlə növbəti ayın 10-dan gec olmayaraq «Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsə ödəyir;

5.2. icbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.2-ci yarımbəndinin 2-ci abzasında Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Naxçıvan Muxtar Respublikasının ərazisində icbari tibbi sığorta haqlarının («Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 15-10.1.1-ci maddəsində nəzərdə tutulmuş vəsait istisna olmaqla) yığımını həyata keçirən səlahiyyətli orqanlar «Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsə ödəyirlər.

**6.** İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.1.6-cı yarımbəndinin 9-cu abzasında «Sair xərclər» üzrə nəzərdə tutulmuş vəsaitdən Agentliyin İdarə Heyətinin qərarı əsasında icbari tibbi sığortanın tətbiqi məqsədilə digər tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur.

**7.** İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin 3.3-cü bəndində «Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri» üzrə nəzərdə tutulmuş vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Agentlik həyata keçirir.

**8.** Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

## Milli Məclisin Səhiyyə komitəsi yaz sessiyasının iş planını müzakirə edib

**Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əhliman Əmiraslanov yaz sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara uğurlu fəaliyyət arzulayıb. Komitə sədri bildirib ki, iclasın gündəliyinə 7 məsələ, o cümlədən 2022-ci il payız sessiyası dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi və bir sıra qanunlarda dəyişikliklərlə bağlı sənədlər daxil edilib.

Əvvəlcə 2022-ci il payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabatı təqdim edən Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, hesabat dövründə komitənin 9 iclası keçirilib, 11 məsələ müzakirə edilib, onlardan 9-u üç oxunuşda baxılmış qanun layihələridir.

Ötən sessiya ərzində komitədə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanda malyariyanın eliminasiyasının sertifikasiyası üzrə qiymətləndirmə missiyasının nümayəndə heyəti ilə görüş keçirilib, səmərəli fikir mübadiləsi aparılıb.

Bildirilib ki, payız sessiyasında komitəyə 314 ərizə və şikayət daxil olub, 255 məktub müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə göndərilib. Ərizə və şikayətlər əsasən vətəndaşların müayinə və müalicəsi, ödənişsiz əməliyyatlar, əlillik pensiyası, ev və işlə təmin olunma, əfv məsələləri ilə bağlı müraciətlərdir. Sessiya ərzində komitənin sədri tərəfindən 218 nəfər vətəndaş qəbul edilib.

Komitənin üzvü Sədaqət Vəliyeva çıxış edərək, ötən sessiya ərzində görülən işlər barədə fikirlərini açıqlayıb, komitənin məhsuldar fəaliyyət göstərdiyini söyləyib.

2022-ci il payız sessiyası dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat məqbul hesab edilib.

Sonra Səhiyyə komitəsinin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi təqdim edilib. Komitə sədri bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən sənədlərin müzakirəsi, yeni qanun layihələrinin hazırlanması nəzərdə tutulub. Bununla yanaşı, müxtəlif mövzularda, o cümlədən tibbi tullantıların idarə olunması ilə bağlı, koronavirus (COVID-19) ilə əlaqədar ölkədəki mövcud vəziyyət və görülən tədbirlərə dair bir sıra dinləmələrin keçirilməsi planlaşdırılır.

Komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri Məlahət İbrahimqızı, Kamilə Əliyeva, Soltan Məmmədov, Müşfiq Məmmədov, İlham Məmmədov, Sədaqət Vəliyeva iş planı barədə öz fikirlərini açıqlayıblar, bir sıra təkliflərini səsləndiriblər. Deputatlar həmçinin səhiyyə sahəsində mövcud vəziyyətlə bağlı, o cümlədən dispanserizasiya tədbirlərinin həyata keçirilməsi, rezidentura təhsilinin təşkili və digər məsələlərə dair bəzi qeydlərini də diqqətə çatdırıblar. Əhliman Əmiraslanov bütövlükdə tibbi kadrların hazırlanması, o cümlədən yüksəkixtisaslı ali tibbi kadrların hazırlanması məsələsinin Milli Məclisin Elm və təhsil komitəsi, Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi ilə birgə müzakirə olunmasını məqsədəuyğun saydığını deyib.

Müzakirələrin sonunda Səhiyyə komitəsinin 2023-cü ilin yaz sessiyası üçün iş planı layihəsi məqsədəmüvafiq hesab olunub.

Sonra komitə sədri Əhliman Əmiraslanov gündəlikdəki qanun layihələrini təqdim edib.

Bildirilib ki, ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında daxil olmuş bir sıra qanun layihələrində «Media haqqında» Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli Qanununun icrası ilə əlaqədar uyğunlaşdırma xarakterli dəyişikliklər nəzərdə tutulub.



Belə ki, «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Yanğın təhlükəsizliyi haqqında», «Müflisləşmə və iflas haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında», «Mülki müdafiə haqqında», «Qrant haqqında», «Hidrometeorologiya fəaliyyəti haqqında» və «Uşaq hüquqları haqqında» qanunlarda dəyişiklik edilməsi barədə, «Dini ekstremizmə qarşı mübarizə haqqında», «Lisenziyalar və icazələr haqqında», «Hərbi vəziyyət haqqında», «Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında», «Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında», «Məşğulluq haqqında», «Hesablama Palatası haqqında», «Uşaqların zərərli informasiyadan qorunması haqqında», «Psixoloji yardım haqqında», «Enerji resurslarının səmərəli istifadə və enerji effektivliyi haqqında» və «Turizm haqqında» qanunlarda dəyişiklik edilməsi barədə, «İpoteka haqqında», «Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında», «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında», «İnzibati icraat haqqında», «Dərman vasitələri haqqında», «Əmanətlərin sığortalanması haqqında», «Dövlət borcu haqqında», «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» və «Vətəndaşların müraciətləri haqqında» qanunlarda dəyişiklik edilməsi barədə, «Sanitariya-epidemioloji salamatlıq haqqında», «Sərhəd mühafizə orqanları haqqında», «Daxili qoşunların statusu haqqında», «Rəsmi statistika haqqında», «Həmkarlar ittifaqları haqqında», «Haqsız rəqabət haqqında», «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında», «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında», «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» və «Xüsusi iqtisadi zonalar haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrində «kütləvi informasiya vasitələri» sözlərinin «media» sözü, «teleradio» sözünün «televiziya və radio» sözləri ilə əvəz edilməsi təklif olunur.

Sonra komitə sədri gündəliyin növbəti məsələsi — «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Bildirib ki, sənəddə müştərək maliyyələşməyə dair dəyişiklik təklif olunur. Sözügedən Qanunun 15-28.3 və 15-28.4-cü maddələrinə əsasən, sığortaolunan ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə və ya icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləği ödəməlidir. Əhalinin tibbi xidmətlərə əlçatanlığı və icbari tibbi sığorta üzrə geniş işlərin görülməsi, habelə sistemin formalaşdırılması məqsədilə həmin qanunun müvafiq maddələrinin tətbiqinin 2024-cü il 1 yanvar tarixinə kimi təxirə salınması nəzərdə tutulub. Dəyişiklik icbari tibbi sığortanın inkişafına, əhaliyə daha keyfiyyətli tibbi xidmətin göstərilməsinə xidmət edir.

Təqdim olunan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## Bakıda COVID-19 xəstələrinə yardım edən həkimlərin maaşına əlavənin müddəti uzadılıb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Bakıda koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin müddətinin uzadılması ilə bağlı Qərar imzalayıb.**



Bu sənədə əsasən, «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Qərarda dəyişiklik edilib.

Belə ki, Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində koronavirus xəstələrinə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına əlavənin ödənilməsi müddəti 2023-cü il martın 1-dək uzadılıb.

# «Milli Məclis» jurnalında səhiyyə naziri

***Azərbaycanda dövlətin ən vacib məqsədlərindən biri insanların sağlamlığı, səhiyyənin və tibb elminin inkişafı, savadlı, bilikli, əsl peşəkar həkim kadrların hazırlanmasıdır. Bu sahədə problemlərin həlli yolu səhiyyənin qanunvericilik bazasının möhkəmləndirilməsindən keçir. Azərbaycan parlamentinin «Milli Məclis» analitik informasiya jurnalının son nömrəsində səhiyyə naziri Teymur Musayevlə bu barədə söhbət dərc olunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

**— Bu gün Azərbaycan beynəlxalq aləmdə bir çox təşəbbüslərlə çıxış edən dövlətlərdəndir. COVID-19 pandemiyası dövründə ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə sıx əməkdaşlıq etdi. Ölkənin səhiyyə sahəsində siyasətini həyata keçirən qurum kimi, beynəlxalq əməkdaşlıqda prioritet olaraq nələri qeyd edərdiniz?**

— Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə həyata keçirilən islahatlar, dövlət proqramları Ümumdünya Səhiyyə Təşkilatının prioritet istiqamətləri və Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri ilə üst-üstə düşür. COVID-19 pandemiyası dövründə ölkə vətəndaşlarının sağlamlığının qorunmasını hökumətin bir nömrəli vəzifəsi elan etmiş möhtərəm cənab Prezident İlham Əliyevin beynəlxalq aləmdəki şəxsi nüfuzu və geniş əlaqələri sayəsində əhalinin mövcud vaksinlərə əlçatanlığı təmin edildi, bu sahədə beynəlxalq əməkdaşlıq gücləndirildi. Belə ki, Azərbaycan pandemiya ilə mübarizədə qlobal həmrəyliyin tərəfdarı olan, COVAX beynəlxalq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri oldu, infeksiyanın qarşısının alınması üçün onlarla dövlətə humanitar yardım göstərdi, ÜST-yə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı etdi.

Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə 2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində, koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirildi. Bunun nəticəsi olaraq, Azərbaycan Prezidentinin təklifi ilə Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüldü və 2021-ci ilin mart ayında yekdilliklə qəbul edildi.

Azərbaycan Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində ÜST-nin «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» və «Vaksinasiyaya dəstək» layihələrinə tərəfdaşlıq edir.

2022-ci ilin iyun ayında ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesus Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş Qlobal Bakı Forumunda iştirak üçün Azərbaycana səfər etdi və ölkə Prezidenti İlham Əliyevlə görüşdü. Görüş zamanı cənab Prezident COVID-19-a qarşı mübarizədə təşkilatın Azərbaycana verdiyi tövsiyələri və ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdiyini vurğuladı. T.Gebreyesus pandemiya dövründə Azərbaycanın təşkilata verdiyi dəstəyə, virusla mübarizədə ölkəmizin milli, regional və beynəlxalq səviyyədə fəaliyyətinə görə təşəkkürünü bildirdi.

Pandemiya zamanı ÜST tərəfindən ölkəmizə fövqəladə səhiyyə vəziyyətləri, infeksiyalara nəzarət və laboratoriya sistemləri, reabilitasiya proqramları üzrə bir neçə missiya göndərildi. Ekspertlər aparılan tədbirləri qənaətbəxş hesab etdilər və müvafiq tövsiyələr verdilər. Qurum infeksiya ilə mübarizə tədbirlərində Azərbaycanın səylərini yüksək qiymətləndirərək onu bu sahədə «nümunəvi ölkə» adlandırdı.

Ölkəmizin səhiyyə siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olaraq Səhiyyə Nazirliyi beynəlxalq əməkdaşlıq sahəsində prioritet istiqamətləri müəyyənləşdirir. Səhiyyədə innovasiyaların və rəqəmsal həllərin stimullaşdırılması, tibb işçilərinin davamlı təhsilinin təmin edilməsi, beynəlxalq elm və araşdırma mərkəzləri ilə birgə kliniki tədqiqatların keçirilməsi, ölkənin tibbi turizm potensialının inkişaf etdirilməsi kimi prioritet əməkdaşlıq istiqamətlərində beynəlxalq və regional təşkilatlar, dünyanın aparıcı tibb müəssisələri, səhiyyə qurumları, xaricdə yaşayan Azərbaycan əsilli tibb işçiləri ilə intensiv işlər aparılır.

Ölkəmiz beynəlxalq layihələrdə yaxından iştirak edir. BMT, ÜST və Uşaq Fondu, Türk Dövlətləri Təşkilatı, Dünya Bankı, Asiya İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Əczaçılıq Təftişi Konvensiyası və Əczaçılıq Təftişi üzrə Əməkdaşlıq Sistemi, Qlobal Fond, eləcə də digər beynəlxalq və regional təsisatlarla yüksək səviyyəli əməkdaşlıq edilir. Türk Dövlətləri Təşkilatı ilə olan əməkdaşlığı xüsusilə vurğulamaq istərdim. Təşkilat çərçivəsində üzv və müşahidəçi ölkələrin vahid tibb elmi məkanının yaradılması, birgə elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi, davamlı tibbi təhsilin təminatı, orqan donorluğu və transplantasiyası fəaliyyətlərinin koordinasiya edilən vahid məkanının yaradılması və bu məqsədlə «Türk Transplant» qurumunun təsis edilməsinin mümkünlüyü aktiv formada müzakirə olunur.

Həmçinin ikitərəfli formatda xarici ölkələrin səhiyyə qurumları ilə imzalanmış memorandumlar çərçivəsində əməkdaşlıq davam etdirilir.




**— Peşəkar kadr potensialının gücləndirilməsi səhiyyədə və əhalinin sağlamlığının qorunmasında əsas şərtlərdən biridir. Bu gün müasir standartlara cavab verən bacarıqlı tibbi kadrların yetişdirilməsi üçün hansı işlər görülür?**

— Ölkəmizdə ali və orta ixtisas tibb təhsilinin dövrün tələblərinə uyğunlaşdırılması və peşəkar kadr hazırlığının keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi, 2011-ci ildən ölkədə rezidentura təhsili tətbiq olunur. İlk vaxtlarda 40 ixtisas üzrə həkim-mütəxəssis hazırlığı aparılırdısa, artıq bu, 56 ixtisas üzrə həyata keçirilir. Rezidentlərin hazırlığı ali tibb təhsili müəssisələrində, xəstəxanalarda və elmi mərkəzlərdə aparılır.

Azərbaycan Tibb Universitetində (ATU) «İmtahan modulu» tətbiqi ilə başlanmış «Elektron universitet» sistemi təkmilləşdirilir, təhsil rəqəmsallaşdırılır. Bu layihə çərçivəsində yaradılmış «Elektron tədris sistemi» tələbələrə şəxsi kabinetləri vasitəsilə öz nəticələrini görmək, universitet həyatı ilə bağlı gündəlik qeydlərini daxil etmək imkanı verir.

Dünya Tibb Təhsili Federasiyası (WFME) və 2017-ci ildən etibarən rəsmi şəkildə tanınan Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik (IAAR) tərəfindən 2022-ci il yanvarın 28-də ATU-nun təqdim etdiyi üç tədris proqramı (müalicə işi, əczaçılıq və stomatologiya) 5 il müddətinə akkreditasiyadan keçirilib. Bu, Azərbaycan Tibb Universitetinin beynəlxalq nüfuzunun artmasına, reytinq siyahılarında irəliləməsinə, daha çox xarici tələbənin universitetə cəlb olunmasına və onların coğrafiyasının genişlənməsinə imkan verəcəkdir.

İlk dəfə olaraq ATU-nun nəzdində Tibb və Əczaçılıq üzrə İnnovasiya Mərkəzi yaradılıb və Əczaçılıq fakültəsinin tələbələri üçün tədris-təcrübi baza kimi fəaliyyət göstərir. Bununla yanaşı, universitetdə Təcili tibb və Tibb və sağlamlıq elmləri təhsili adlı iki yeni kafedra işə başlayıb. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) isə bu il Ortodontiya adlı yeni kafedra yaradılıb.

ATU-nun, ADHTİ-nin beynəlxalq əməkdaşlıq əlaqələri genişlənir, o cümlədən həm tələbələr, həm də akademik heyət üzvləri arasında mübadilə aparılır.

Hazırda həkimlərlə bərabər, orta tibb işçilərinin də hazırlığına xüsusi önəm verilir. Onların hazırlığı 9 ixtisas üzrə 11 tibb kollecində aparılır. Altı kollecdə orta ixtisas tibb təhsili ilə yanaşı, ixtisasartırma təhsili də həyata keçirilir. Regionlarda fəaliyyət göstərən kolleclərdən üçündə yeni şöbələrin açılması ilə onlarda tədris olunan ixtisasların sayının artmasına nail olunub.

Tibb kolleclərinin pedaqoji heyəti və tələbələri müxtəlif beynəlxalq layihələrdə və təlimlərdə iştirak edirlər. Bunlara misal olaraq UNICEF-in «Hamilə qadınlara və erkən yaşlı uşaqlara universal mütərəqqi patronaj modeli», «Bəsləyici qayğı ilə bağlı ailələrə dəstək üzrə ev ziyarətçilərinin hazırlanması» təlimlərini, ÜST-nin «Dərman tətbiq etmə və təməl yaşam dəstəyi» təlimini, Avropa İttifaqı ilə birgə həyata keçirdiyi «Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü» çərçivəsində «COVID-19 əleyhinə vaksinasiyaya dəstək», «PROACT — Training» və «PROACT — Care» layihələrini qeyd etmək olar.

**— Ölkədə tibbi personalın sertifikasiyası aktiv şəkildə həyata keçirilir. Bununla bərabər, prosesin təkmilləşdiril-**

# Teymur Musayevlə müsahibə

**məsinə dair fikirlər səslənməkdədir. Bu sahədə yeniliklər gözlənilirmi?**

— Tibb işçilərinin fəaliyyətlərinin nəticələri birbaşa insan sağlamlığına təsir etdiyindən onlardan peşəkar bilik və bacarıqlarının daim yüksəldilməsi tələb olunur. Qabaqcıl səhiyyə sistemləri olan bir çox ölkələrdə davamlı tibbi təhsil üsulu həyata keçirilir. Ölkəmizdə davamlı tibbi təhsilin normativ bazasının formalaşdırılmasına və tətbiqinə ehtiyac vardır.

Hazırda davamlı tibbi təhsilin hüquqi bazasının yaradılması, habelə tibb və əczaçılıq işçilərinin sertifikasiyası ilə əlaqələndirilməsi üzrə layihələr hazırlanır. Bu təkliflər Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan tibb mütəxəssislərinin beş ildə bir dəfə sertifikasiya şəhadətnaməsi əldə etməsi üçün sertifikasiya imtahanından keçməsini və ya davamlı tibbi təhsil kreditlərini toplamasını özündə ehtiva edir.

Tibb mütəxəssislərinin peşəkar bilik və bacarıqlarının fasiləsiz inkişaf etdirilməsinə münasibətdə daha çevik və səmərəli yanaşma ortaya qoyan davamlı tibbi təhsilin ölkədə geniş tətbiqi əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətində öz müsbət rolunu oynayacaqdır.

**— Əvvəlki illərlə müqayisədə dövlət tibb müəssisələri ilə yanaşı, özəl müəssisələrin də sayı çoxalmaqdadır. Nəzərə alsaq ki, insanların həyatı bu yeni qurulan klinikaların hazırlıq səviyyəsindən birbaşa asılıdır, bilmək istərdik ki, onların akkreditasiyasında hansı meyarlar əsas götürülür?**

— Son illər ölkə iqtisadiyyatında özəl sektorun payının davamlı artması möhtərəm cənab Prezident İlham Əliyevin iqtisadiyyatın diversifikasiyası və sahibkarlıq mühitinin dəstəklənməsi məqsədilə apardığı islahatlar proqramı ilə birbaşa bağlıdır. Təbii ki, müsbət inkişaf dinamikası özəl tibb fəaliyyəti ilə məşğul olan şəxslərin sayının da ilbəil artmasına səbəb olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 15 may tarixli 206 nömrəli Qərarı ilə təsdiq edilmiş «Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı»na əsasən, özəl tibb fəaliyyəti həyata keçirmək istəyən şəxs ilk növbədə lisenziya almalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 20 aprel 2016-cı il tarixli Fərmanı ilə özəl tibb fəaliyyətinə lisenziya vermək səlahiyyətinə malik dövlət orqanı kimi müəyyən olunmuş İqtisadiyyat Nazirliyi aidiyyəti sahibkarlıq subyektlərinin ərizələrinə baxarkən qanunvericiliyin tələblərinə uyğun olaraq rəy alınması üçün Səhiyyə Nazirliyinə müraciət edir. Həmin müəssisələrin qiymətləndirilməsi «Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar»a əsasən həyata keçirilir. Səhiyyə Nazirliyi tərəfindən yekun rəy İqtisadiyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə verilir.



Qeyd etdiyiniz kimi, tibb müəssisələrində göstərilən xidmətlərin nəticələri birbaşa insan sağlamlığına təsir etdiyindən bu sahədə nəzarət ən vacib məsələlərdəndir. Lisenziya almış özəl tibb fəaliyyəti subyektlərinin göstərdikləri tibbi xidmətlərə nəzarət Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Bu məqsədlə müvafiq normativ sənədlərin tələblərinə uyğun olaraq planlı və plandankənar yoxlamalar təşkil edilir.

Tibb müəssisələrində akkreditasiyanın aparılması məsələsinə gəldikdə isə bu, «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun tələbidir. Akkreditasiyanın məqsədi əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin, tibb müəssisələrinin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsidir. Bu, əhalinin yüksək keyfiyyətli tibbi xidmət göstərən tibb müəssisəsində müayinə və müalicə olunması üçün seçim hüququnu təmin edir.

Tibb müəssisələrinin və tibbi xidmətlərin akkreditasiyası hazırda Səhiyyə Nazirliyinin gündəliyində duran ən əsas məsələlərdən biridir. Belə ki, tibb xidmətlərinin keyfiyyətinin artırılması və pasiyent təhlükəsizliyinin təmin olunması bizim üçün prioritet məsələdir.

Məlumat üçün bildirim ki, 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 447 saylı Qərarı ilə «Tibb müəssisələrinin akkreditasiyası Qaydası» təsdiq edilib. Bununla yanaşı, tibb davamlı və sürətli inkişaf edən sektor olduğundan sözügedən Qaydanın müasir dövrün tələblərinə uyğunlaşdırılmasına zərurət vardır. Bu məqsədlə Səhiyyə Nazirliyinin tabeliyində Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması nəzərdə tutulur. Bununla bağlı hazırlanmış sənəd layihəsi aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Səhiyyə Nazirliyində tibb müəssisələrinin akkreditasiya qaydasının təkmilləşdirilməsi, keyfiyyət meyarlarının hazırlanması ilə bağlı İşçi qrup fəaliyyət göstərir. İşçi qrup öz işində dünya ölkələrinin təcrübəsinə, həmçinin Səhiyyədə Keyfiyyət Beynəlxalq Cəmiyyətinin təlimatlarına əsaslanır. Ümumiyyətlə, 2023-cü ildə ölkə ərazisində göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması və bu sahədə nəzarətin gücləndirilməsi məqsədilə bir sıra tədbirlər planlaşdırılır. Bu tədbirlər normativ hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq praktikaya uyğun tənzimləmə mexanizmlərinin tətbiqi ilə bağlı olacaqdır.

**— Sirr deyil ki, son zamanlar əczaçılıqda da problemlər yaşanır. Dərman preparatlarının durmadan bahalaşması və keyfiyyətsizliyi narahatlıq doğurur. Nazirlik bu problemin həlli yönündə hansı işlər aparır?**

— Ölkə əhalisinin sağlamlığı, o cümlədən vətəndaşların keyfiyyətli, təhlükəsiz, innovativ dərman vasitələrinə əlçatanlığının təmin edilməsi hər zaman dövlət başçımızın diqqət və nəzarətində olan məsələdir. Son on ildə ölkəmizdə 10830 adda dərman vasitəsi dövlət qeydiyyatına alınıb. 2017-2022-ci illərdə dünyanın 100 ən yaxşı dərman istehsalçısından 60 şirkətin məhsulları ölkəmizə idxal olunub. Hər bir dərman vasitəsinin həyat tsikli xammal istehsalından pasiyent istehlakına qədər bir neçə mərhələni əhatə edir. Bu mərhələlərə tədqiqat, sınaq, istehsal, keyfiyyətə nəzarət, qeydiyyat, idxal, daşınma, saxlanma, satış və farmakonəzarət aiddir.

Azərbaycan Respublikasında dövriyyədə olan dərman vasitələri də bu mərhələləri keçərək pasiyentlərə çatır. Səhiyyə Nazirliyi bütün prosesə dövlət nəzarətini müvafiq qanunvericiliyə əsasən həyata keçirir. Proses özündə dərman vasitələrinin keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyi üzərində dövlət nəzarətini, həmçinin əczaçılıq bazarı iştirakçılarının fəaliyyətləri zamanı ortaya çıxan problemlərin tənzimlənməsini ehtiva edir. Yekun hədəf əhalinin keyfiyyətli, effektiv və təhlükəsiz dərman və tibb vasitələri ilə təminatıdır. Nazirliyin bu sahədə icraçı və tənzimləyici funksiyası daşıyan Analitik Ekspertiza Mərkəzi (AEM) Avropa, ABŞ Farmakopeyalarının müşahidəçi üzvüdür, ÜST, Qlobal Fond, Uppsala Monitorinq Mərkəzi və digər bu kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, öz fəaliyyətini milli və beynəlxalq normativ hüquqi aktların tələblərinə uyğun həyata keçirir.

Sualınızda qeyd olunan «keyfiyyətsizlik» məsələsi bu proseslərin hamısının üzərində dayanan təhlükəsizlik, effektivlik və keyfiyyətə nəzarət tədbirləri çərçivəsində öz həllini tapır və təchizat zəncirinin hər bir mərhələsində bu risk ən minimal səviyyəyə endirilir. Belə ki, hər bir dərman vasitəsi qanunvericiliyə uyğun olaraq dövlət qeydiyyatına alındıqdan sonra idxalı rəsmiləşdirilir. İdxal olunarkən dərman vasitələrinin hər bir idxal partiyası müvafiq laborator və sənəd ekspertizasından keçirilərək idxalına razılıq verilir. Bundan əlavə, AEM-in mütəxəssisləri tərəfindən istehsalçıların istehsal sahələri mütəmadi olaraq təftiş olunur ki, bu da nəzarət tədbirlərinin tərkib hissəsidir.

AEM-in Tibb və əczaçılıq vasitələrinin ekspertizası və keyfiyyətinə nəzarət laboratoriyası dərman vasitələrinin keyfiyyətinin yoxlanılmasını həyata keçirir. İdxal və qeydiyyat proseduru zamanı dərman vasitələrinin keyfiyyəti laboratoriya tərəfindən istehsalçının normativ sənədləri əsasında yoxlanılır. Laboratoriya müasir tələblərə cavab verən, tədqiqatların tam dəqiqliklə yerinə yetirilməsi üçün yüksək kimyəvi saflığa malik reagentlərlə, həssas və dəqiq avadanlıqlarla təchiz edilib, 2022-ci ildə növbəti dəfə beynəlxalq standart — İSO 17025 standartının yeni versiyasına uyğun akkreditasiya olunub. 2021-ci ildən Mərkəzin laboratoriyası ÜST-nin Bioloji Dərman Vasitələrinin Yoxlanılması Milli Laboratoriyalar Şəbəkəsinə assosiativ üzv qəbul edilib.

Qiymətlərə dair sualınıza gəldikdə, bilirsiniz ki, qanunvericiliyə əsasən dərman vasitələri 2015-ci ildən qiymətləri tənzimlənən məhsullara aid edilir. Tənzimlənən qiymətlərdən fərqli qiymətə satış qanunvericiliklə müəyyən olunmuş məsuliyyətə səbəb olur. Qiymətləri tənzimlənən dərman vasitələrinin qiymətindəki artım pandemiya dövrü ilə bağlı, son vaxtlar isə məlum geosiyasi səbəblərdən qlobal və regional səviyyədə xammal, qablaşdırma və logistika xərclərinin artması ilə izah edilir.

Əczaçılıq sektorunun inkişafı strateji məsələ olduğundan bu sahədə mümkün riskləri minimallaşdırmaq üçün son illərdə yerli sənayenin inkişafına xüsusi diqqət yetirilir. Ölkəmizdə yaradılan sənaye parklarında rezident kimi qeydiyyatdan keçən əczaçılıq biznesi subyektləri yaxın dövrlərdə bazarın müəyyən hissəsini yerli məhsullarla təmin edəcəkdir.



## Səhiyyə Nazirliyinin rəhbərliyi Şəhidlər Xiyabanını ziyarət edib

**Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 33 il ötdü.**

Bu hüzn və şücaət gününün 33-cü ildönümü ilə əlaqədar Səhiyyə Nazirliyinin rəhbərliyi Şəhidlər Xiyabanını ziyarət edib. Ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsi ehtiramla yad olunub.

Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Eyni zamanda, 20 Yanvar Azərbaycan xalqının həyatında dönüş nöqtəsi oldu.

1990-cı ildən başlanan ağır, çətin, ancaq şərəfli yol Qarabağ Zəfəri ilə ən şanlı zirvəyə çatdı. Ermənistanın işğal etdiyi torpaqlarımız 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad olundu.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## Azərbaycanla İsveç arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq müzakirə olunub




**Azərbaycan Səhiyyə Nazirliyində İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonla görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, **səhiyyə naziri Teymur Musayev** son illər ölkələrimiz arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini vurğulayıb: «Dövlət başçılarının müntəzəm görüşləri, eyni zamanda, hökumət üzvlərinin qarşılıqlı səfərləri iki ölkə arasında müxtəlif istiqamətlərdə münasibətlərin inkişafında mühüm rol oynayır».

Teymur Musayev Azərbaycanla İsveç arasında səhiyyə sahəsində mövcud əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib. Onun sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar var: «İsveçdə səhiyyə sahəsi üzrə dünyada ən universal modellərdən biri yaradılıb. Bir çox dövlətlər öz ictimai səhiyyə sistemini yaratmaq üçün ondan nümunə kimi istifadə edir. Bundan əlavə, İsveçin «Mölnlycke» şirkəti yüksəkkeyfiyyətli tibbi avadanlıqlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən biridir».

Nazir həmçinin qeyd edib ki, bu Skandinaviya ölkəsinin güclü əczaçılıq sənayesi dünyanın ən yaxşılarından biri hesab olunur.

Sonda Azərbaycan səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində **səfir Tobias Lorentzson** İsveçin Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib: «Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələr qurulub və bu müddət ərzində İsveç və Azərbaycan dövlətləri arasında əməkdaşlıq müsbət dinamika ilə inkişaf edir».

İsveçdə əczaçılıq sənayesinin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edən səfir ölkəsinin bu sahədə Azərbaycanla mövcud olan əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsində maraqlı olduğunu ifadə edib.

Görüşdə Azərbaycanla İsveç arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsi, əczaçılıq üzrə əməkdaşlığın gücləndirilməsinin yeni perspektivləri, eyni zamanda, milli səhiyyə müəssisələri tərəfindən təcrübə mübadiləsi barədə faydalı söhbət aparılıb. Həmçinin yaz aylarında Bakıda keçiriləcək «Gen dermatozu olan xəstələrə yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi. Azərbaycan - İsveç - MDB: epidermoliz büllozası və ixtiozlu xəstələrə hərtərəfli tibbi yardım göstərilməsi sahəsində təcrübə mübadiləsi» dəyirmi masasının təşkili məsələləri müzakirə olunub.

## Səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişafı müzakirə edildi



**Səhiyyə Nazirliyində Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa regionu üzrə direktoru Rana Karadşehlə görüş keçirilib.**

**Səhiyyə naziri Teymur Musayev** ötən illər ərzində bu qurumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluğunu ifadə edib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, nazir qeyd edib ki, 2022-ci il dekabrın 27-də Prezident İlham Əliyev tərəfindən imzalanan «Dövlət-özəl tərəfdaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, eyni zamanda, dövlət və özəl tərəfdaşlar arasında yaranan münasibətləri tənzimləyir.

Nazir ölkəmizdə səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu bildirib.

**Beynəlxalq Maliyyə Korporasiyasının Avropa regionu üzrə direktoru Rana Karadşeh** ölkəmizin 1995-ci ildən korporasiyaya üzv olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycanda səhiyyə sektoruna özəl investisiyaların cəlb olunması, göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin artırılması məqsədilə dövlət-özəl sektor tərəfdaşlığı sahəsində mühüm işlər görülüb.

Görüşdə tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə müzakirə aparıblar.

## Ötən il Azərbaycanda göyöskürək və malyariya qeydə alınmayıb

**Ötən il ölkəmizdə qeydə alınmış xəstəliklər arasında tənəffüs sistemi xəstəlikləri, bəzi infeksion və parazitar xəstəliklər, həzm orqanlarının, qan dövranı sisteminin, sidikcinsiyyət sisteminin patologiyaları, göz və gözün əlavə aparatının xəstəlikləri, eləcə də qan və qanyaradıcı orqanların xəstəlikləri üstünlük təşkil edib.**

Bu barədə AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla məlumat verib.

Bildirilib ki, keçən il inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da uşaqlar yoluxucu xəstəliklərin profilaktikası məqsədilə 11 xəstəliyə qarşı müasir vaksinlərlə peyvənd ediliblər. Bunun nəticəsi olaraq ayrı-ayrı yoluxucu xəstəliklərin azalmasına, bəzilərinin isə tam ləğvinə nail olunub.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, ötən ilin yanvar-noyabr aylarında 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkədə hepatit A ilə xəstələnmə halları 30,3 faiz, yuxarı tənəffüs yollarının çoxsaylı və ya qeyri-müəyyən lokalizasiyalı kəskin infeksiyaları 28,3 faiz, qazanılmış immunçatışmazlığı virusu ilə yoluxma 20,6 faiz, qonokokk infeksiyası ilə 13,3 faiz, viruslu hepatit B ilə yoluxma 9,1 faiz azalıb.

Göyöskürək və malyariya xəstəlikləri, kəskin poliomielit, epidemik parotit, tulyaremiya, anadangəlmə məxmərək sindromu, difteriya, yenidoğulmuşlarda tetanus isə ümumiyyətlə qeydə alınmayıb.

Dövlət Statistika Komitəsindən verilən məlumatda həmçinin qeyd olunub ki, COVID-19 virusunun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə 2020-ci ildə başlayan zəruri qabaqlayıcı və profilaktik tədbirlər 2022-ci ildə də davam etdirilib.

## «Bakı KOB evi»ndə Səhiyyə Nazirliyinin xidmət masası fəaliyyət göstərir

**Ölkəmizdə kiçik və orta biznesin (KOB) inkişafını təmin etmək məqsədilə müxtəlif dövlət və özəl qurumlar tərəfindən sahibkarlara vahid məkanda xidmət göstərən KOB evləri yaradılıb.**

«Bakı KOB evi»ndə Səhiyyə Nazirliyinin struktur bölmələri tərəfindən də sahibkarlara bir sıra xidmətlər göstərilir.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, sahibkarlar bir sıra sənədlərin alınması üçün nazirliyin «Bakı KOB evi»ndə fəaliyyət göstərən mütəxəssislərinə müraciət edə bilərlər. Bunlar dərman vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxalına icazə, dərman vasitəsinin dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsi, dərman vasitəsi haqqında məlumat, gəminin sanitariya nəzarətindən keçməsi və ya sanitariya nəzarətindən azad edilməsi haqqında şəhadətnamə, üzmə hüququ üçün gəmi (daxili sularda üzən gəmilər üçün) sanitariya şəhadətnaməsi, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının idxalına və ixracına icazə, özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə Daxili İşlər Nazirliyindən (DİN) razılıq məktubunun alınması üçün xüsusi rəy, əczaçılıq və tibb müəssisəsində narkotik vasitələrin, psixotrop maddələrin, güclü təsir edən və ya zəhərli maddələrin dövriyyəsinə DİN-dən xüsusi icazənin alınması üçün rəy sənədləridir.

Qeyd edək ki, Bakı şəhəri, akademik Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə ünvanında yerləşən «Bakı KOB evi» həftəiçi 5 gün, saat 09.00-dan 18.00-dək fəaliyyət göstərir.

# İSİM-də təbabət üzrə elmi tədqiqatların və innovasiyaların təşviqi müzakirə edildi



**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) Səhiyyədə Elmi Tədqiqatların və İnnovasiyaların Təşviqi Konfransı keçirilib.**

Tədbirdə giriş sözü ilə çıxış edən **İSİM-in direktor müavini Rahib Məmmədov** bildirib ki, müasir dövrdə qarşıda duran ən aktual məsələlərdən biri milli səhiyyə sisteminin bütün səviyyələrində inkişafın innovativ yönümlü olması, innovasiyaları stimullaşdırmaq üçün yanaşmaların, elmi tədqiqatların hazırlanması və təşviqidir.

**İSİM-in Səhiyyə siyasəti və planlaşdırma şöbəsinin müdiri Nabil Seyidov** elmi tədqiqatların təşviqi proqramı, onun məqsəd və vəzifələri, o cümlədən klinik tədqiqatların təşkili və GCP sertifikasiyası barədə geniş təqdimatla çıxış edib. O, İSİM tərəfindən həyata keçirilən sorğu və tədqiqatlar haqqında ətraflı məlumat verib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa üzrə Regional Ofisinin 2022-ci ildə Azərbaycanda aparılan Uşaqlarda Piylənməyə Nəzarət Təşəbbüsü (COSI) tədqiqatı ilə bağlı çıxış edən **İSİM-in İlkin səhiyyə və ailə təbabəti şöbəsinin müdiri Lütfi Qafarov** uşaqlar arasında artıq çəki və piylənmənin risk amillərinin öyrənilməsinin əhəmiyyətini vurğulayıb.

**İSİM-in əməkdaşı Səbinə Babazadə** çıxış edərək, ÜST-nin qəbul etdiyi metodologiya üzrə Azərbaycanda keçirilən «Məktəbyaşlı uşaqlar arasında sağlamlıq vərdişlərinin öyrənilməsinə dair sorğu» (HBSC) və onun nəticələri barədə konfrans iştirakçılarına məlumat verib.

Daha sonra xarici ekspertlərin «Zoom» platforması üzərindən onlayn məruzələri dinlənilib. ÜST-nin Regional Ofisinin nümayəndəsi Mark Katz «Tədqiqatlar nəyə görə lazımdır?», Ceyson Maknayt «Beynəlxalq jurnallardakı nəşrlərdə uğur qazanmaq üçün məsləhətlər» mövzularında çıxış ediblər. Digər xarici ekspertlər Ceyson Doran «Kommunikasiya araşdırması», Madelin Rokas «Vaksin effektivliyi: konsepsiya və analiz» mövzularında danışıblar.

# Sertifikasiya imtahanlarının keçirilməsi bərpa edilib

**Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiya imtahanları texniki səbəblərə görə 26 dekabr 2022-ci il tarixindən təxirə salınmışdı. Bu il yanvarın 11-dən etibarən imtahanların keçirilməsi bərpa edilib.**

Həmin tarixlərdə imtahanı təxirə salınmış şəxslərə yeni imtahan tarixləri və yenilənmiş imtahan buraxılış vərəqələri təkrar göndərilib.

Hazırda sertifikasiya prosesi işgüzar rejimdə davam etdirilir.

# Xaricdə klinik ordinatura təhsili alanların imtahanları keçirilir

**2011-ci ildən ölkədə rezidentura təhsili tətbiq edildikdən sonra xarici ölkələrdə diplomdan sonra tibb ixtisasları üzrə təhsil almış şəxslərin çoxsaylı müraciətləri nəzərə alınıb və Səhiyyə Nazirliyinin Kollegiyasının qərarı ilə «Xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin bilik səviyyəsinin və peşə səriştəsinin yoxlanılması məqsədilə imtahanın keçirilməsi Qaydası» təsdiq olunub.**

Qeydiyyatdan keçmiş şəxslər diplomun etibarlılığı Səhiyyə Nazirliyinin Kadr Məsələləri üzrə Komissiyası tərəfindən təsdiq edildikdən sonra imtahanda iştirak edə bilərlər. Komissiyanın Qərarı ilə imtahana buraxılan şəxslərə buraxılış vərəqəsi verilir. Bu vərəqə imtahana ən gec beş gün qalmış şəxsi kabinet vasitəsilə göndərilir. İmtahanın yeri və ixtisas üzrə keçirilmə tarixi barədə məlumatlar buraxılış vərəqəsində qeyd olunur.



İmtahanların ilk mərhələsi bu il yanvarın 23-24-də keçirilib. İmtahan nəticələri barədə məlumat namizədlərə elektron kabinet vasitəsilə imtahanın keçirildiyi gün verilib.

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, imtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş şəxslərin imtahanları davam etdirilir. İmtahanların birinci mərhələsinə cəlb edilməmiş şəxslər üçün keçiriləcək imtahanların tarixləri barədə Səhiyyə Nazirliyinin rəsmi internet saytında əlavə məlumat veriləcək.

# Elmi Tədqiqat İnstitutlarına təyinatlar edilib

**2023-cü il yanvarın 1-də təbabət üzrə elmi tədqiqat institutları Səhiyyə Nazirliyinin tabeliyinə keçdikdən sonra belə elmi-tibbi müəssisələrin bəzilərində rəhbər şəxslərin təyinatları olub.**

Belə ki, səhiyyə naziri Teymur Musayevin müvafiq əmrinə əsasən, Şahin Əkbərov Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna (ETTOİ) direktor vəzifəsinə təyin edilib.

Səhiyyə nazirinin digər əmri ilə Kamil Eyvazov ETTOİ-nin direktor müavini — baş həkim, Rüstəm Talışinski isə direktorun elmi işlər üzrə müavini vəzifəsinə təyin olunub.

Digər təyinatlar Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Tibbi Bərpa İnstitutuna (ETTBİ) edilib.

Səhiyyə naziri Teymur Musayevin müvafiq əmrlərinə əsasən, Sədaqət Hüseynova İnstitutun direktoru, Rəhimə Məmmədova direktorun müavini — baş həkim vəzifəsinə təyin olunub.

# Aİ və ÜST Tərtərdə psixi sağlamlıq üzrə təlimlər keçirib

Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə həyata keçirilən «Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası» layihəsi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkə ofisi Səhiyyə Nazirliyi və TƏBİB-in birgə əməkdaşlığı ilə Tərtər Rayon Mərkəzi Xəstəxanasında ilkin səhiyyə xidməti göstərən həkimlər üçün «mhGAP» (psixi sağlamlıq sahəsində boşluqları aradan qaldırmaq üçün tədbirlər planı) təlimi təşkil edib.



ÜST-nin Azərbaycandakı nümayəndəliyindən verilən xəbərə görə, «mhGAP» üzrə təlimçilər üçün təlim proqramını tamamlamış yerli təlimçilər — Nərmin Osmanlı (ÜST Azərbaycan), Vəfa Şirinova (Səhiyyə Nazirliyi) və Vüsalə Əliyeva (TƏBİB) ilkin səhiyyə xidməti göstərən həkimlərdə ən çox rast gəlinən psixi sağlamlıq pozuntularını müəyyən etmək, idarə etmək və yönləndirmək üzrə təlim keçiblər.

Təlimdə klinik depressiya, təşviş pozuntuları, posttravmatik stres pozuntusu və stres kimi psixi sağlamlıq pozuntuları haqqında, eləcə də yardım üçün müraciət edən şəxslərə düzgün yanaşmanın təməl prinsipləri barəsində sessiyalar yer alıb. Məlumatların mənimsənilməsi və praktiki bacarıqların artırılması məqsədilə rol oyunları və qrup işləri təşkil olunub.

«Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası» layihəsi psixi sağlamlıq xidmətlərinin ilkin səhiyyə səviyyəsində təkmilləşdirilməsi məqsədilə ÜST-nin Azərbaycan ölkə ofisi tərəfindən Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilir. Layihənin məqsədi psixi sağlamlıq və psixososial dəstək üçün multidisiplinar koordinasiya mexanizminin yaradılmasına yardım etmək və ilkin səhiyyə xidməti müəssisələrində psixi sağlamlıq xidmətləri potensialını artırmaqdır. Sözügedən layihə Aİ və ÜST-nin Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

# İSİM 200 nəfərin iştirakı ilə sağlamlıq biliklərinə dair sorğu keçirib

**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən 2022-ci ildə orta məktəblərdə 200 nəfərin iştirakı ilə anonim formada keçirilən sorğuların nəticələri müzakirə olunub.**

İSİM-dən verilən məlumata görə, **mərkəzin direktoru Qəhrəman Haqverdiyev** qurumun keçirdiyi sorğuların və maarifləndirmə işlərinin uğurlu nəticələrindən danışıb. Bildirib ki, məktəblilərin sağlamlıqlarının qorunması və xəstəliklərin profilaktikası istiqamətində aparılan işlər gənc nəslin sağlam formalaşmasına kömək edəcək və öz uğurlu töhfələrini verəcək.

Daha sonra **İSİM-in Monitorinq və təhlil şöbəsinin müdiri İnarə Makayeva** «Sağlamlığı təşviq edən məktəblər» layihəsi barədə məruzə edib. Diqqətə çatdırıb ki, layihənin keçirilməsində məqsəd məktəblilər arasında sağlamlıq biliklərini formalaşdırmaq, onları zərərli vərdişlərdən uzaq olmağa çağırmaq, sağlam olmayan həyat tərzi səbəbindən orqanizmdə baş verə biləcək fəsadları diqqətə çatdırmaq idi.

**İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev** isə 2022-ci ilin fevral-mart aylarında keçirilən sorğu tədqiqatının Bakı şəhərinin 10 ümumtəhsil məktəbində pedaqoji heyət arasında aparıldığını və sağlam həyat tərzinin əsaslarına dair gənc nəslin məlumatlandırılması istiqamətində təhsil işçilərinin fikir və təkliflərinin öyrənildiyini qeyd edib.

Sonda keçirilən sorğular və gələcək planlar barəsində geniş fikir mübadiləsi aparılıb.

# Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin doğum gününə həsr olunmuş konfrans keçirildi

**Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) bu elmi-tibbi müəssisənin adını daşıdığı, onun təşəkkülündə və beynəlxalq aləmdə tanıdılmasında böyük rol oynamış şəxsin — Azərbaycan səhiyyəsinin inkişafında müstəsna xidmətləri olan görkəmli alim və dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı, Əməkdar həkim, professor Əziz Məmmədkərim oğlu Əliyevin doğum gününə həsr olunmuş ənənəvi elmi-praktiki konfrans keçirilib.**



Tədbiri giriş sözü ilə açan Ə.Əliyev adına ADHTİ-nin rektoru professor Nazim Qasımov qeyd edib ki, xalqımız öz şərəfli tarixini müşahidə edərkən Vətəninə, xalqına sadiq olan şəxsləri çox həssaslıqla yada salır. Onların arasında dövlət xadimi, səhiyyənin və tibb elminin görkəmli təşkilatçısı Əziz Əliyevin xüsusi rolu var. Həkimləri Təkmilləşdirmə İnstitutunun tarixinin bir çox şərəfli səhifələrinin məhz Əziz Əliyevin adı ilə bağlı olduğunu vurğulayan rektor onun ictimai və elmi fəaliyyəti haqqında danışıb.

Çıxışının sonunda professor N.Qasımov qeyd edib ki, Ə.Əliyevin qoyduğu ənənələr bu gün də davam etdirilir, institut durmadan yenilənir, bütün sahələrdə irəliləyir.

Ə.Əliyev adına ADHTİ-nin professor-müəllim heyətinin, həkim-müdavimlərin və rezidentlərin iştirak etdiyi konfrans öz işini institutun dissertantlarının və rezidentlərinin apardıqları elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş çıxışları ilə davam etdirib. Onların təbabətin müxtəlif aktual problemlərinə həsr olunmuş məruzələri çox maraqla dinlənilib və mövzular ətrafında diskussiyalar aparılıb.

# Qazilərə, müharibə iştirakçılarına və şəhid ailələri üzvlərinə psixoloji dəstək göstərilir

**Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan qazilər, qazi və şəhid ailələri, eləcə də müharibə iştirakçıları üçün psixoloji dəstək aksiyasına başlanıb.**

Bu barədə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə həyata keçirilən aksiyada bu kateqoriyadan olan şəxsləri Bakı şəhərindən və Türkiyə Respublikasından dəvət olunmuş ixtisaslı psixoterapevtlər qəbul edirlər.

Müayinələrdə iştirak etmək üçün Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xətti ilə qeydiyyatdan keçən şəxslər növbəlilik və könüllülük prinsipi əsasında psixoloqların qəbulunda olurlar.

Müharibədən sonra psixoloji problemlər yaşayan qazilərimizin, şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların Naxçıvan Muxtar Respublika Xəstəxanasında ödənişsiz psixoloji reabilitasiyası təşkil olunur.

Qeyd edək ki, müraciət edən şəxsin mənəvi-psixoloji problemindən asılı olaraq seanslar həftədə 1 və ya 2 dəfə olmaqla bir saat müddətində aparılır. Pasiyentlərin qəbulu 4-6 seansdan 12 seansa qədər davam edə bilər.

# Daha 31 dərmanın qiyməti təsdiq edildi

**Tarif (qiymət) Şurasının 31 yanvar 2023-cü il tarixində keçirilən növbəti iclasında yeni dövlət qeydiyyatına alınan 48 dərman vasitəsinin qiymətinin təsdiq edilməsi və etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınmış 31 dərman vasitəsinin qiymətində dəyişikliklər edilib.**

Dəyişikliklər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası»nın 7.1-ci bəndinə və Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat»ın 4.1-ci bəndinə uyğun olaraq həyata keçirilib.

Bununla da, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiq edilmiş dərman vasitələrinin sayı 13 690 olub.

Qiyməti təsdiq edilmiş dərman vasitələrinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) «Dərman vasitələri» bölməsində (http:tariff.gov.azdocumentsDVA.pdf) yerləşdirilib.

Qərar 3 fevral 2023-cü il tarixindən qüvvəyə minir.

# Danimarka dərman istehsalçısı saxta preparatla bağlı müraciət edib

***Azərbaycanda Ozempik® preparatının saxtalaşdırılma halları qeydə alınıb***

**Danimarka dərman istehsalçısı «Novo Nordisk AS» şirkətinin Azərbaycan nümayəndəliyi səhiyyə işçilərinə və əhaliyə müraciət edib.**

AZƏRTAC-ın bildirdiyinə görə, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinə daxil olan müraciətdə deyilir: «Ozempik® preparatına tələbatın yüksək olması ilə əlaqədar olaraq, Ozempik® 0,5 mq və 1,0 mq preparatının çoxsaylı saxtalaşdırılma hallarının meydana çıxması müşahidə olunur. Nümayəndəlikdən bildirilib ki, bütün kontrafakt (saxtalaşdırılma) halları Novo Nordisk şirkəti tərəfindən izlənilir və qeydə alınır. Hazırda Qazaxıstan, Rusiya, Azərbaycan və Özbəkistanda saxtalaşdırılma halları qeydə alınıb».

Müraciətdə şirkətin saxta Ozempik® 0,5 mq və 1,0 mq preparatını necə fərqləndirmək barədə verdiyi tövsiyələr də əksini tapıb:

İnsulin istehsalçısı tərəfindən istifadə edilən, insulinlə müalicə üçün nəzərdə tutulmuş şpris-qələm

Maksimum 80 vahid bölgüyə malik doza sayğacının olması (orijinal Ozempik® şpris-qələmində cəmi 3 bölgü şkalası mövcuddur: 0,25 mq, 0,5 mq və 1,0 mq)

Sıxdıqda iynədən kəskin insulin qoxusuna malik olan maye axır.

«Novo Nordisk AS» şirkəti həm səhiyyə mütəxəssislərinə, həm də pasiyentlərə preparatı aptekdən əldə edərkən Ozempik® şpris-qələminə xüsusilə diqqət yetirmələrini israrla tövsiyə edir.

Preparatın saxta olduğuna dair hər hansı şübhələr olduqda, insan orqanizminə gözlənilməz təsirlərin qarşısını almaq üçün bu halda preparatın istifadəsi qəti qadağandır. Saxta preparatın istifadəsi pasiyentin həyatı üçün təhlükəli ola bilər!




«Novo Nordisk AS» şirkəti səhiyyə mütəxəssislərinə preparat istifadə edilənə qədər saxta məhsulun müəyyən edilməsi üçün Ozempik® preparatının qablaşmasının içindəkiləri pasiyentlə birlikdə nəzərdən keçirmək imkanından istifadə etməyi tövsiyə edir və saxta məhsullar aşkar edildikdə bu cür hallar barədə şirkətin elektron poçt ünvanına (io-rom-safety@novonordisk.com) məlumat verməyi israrla xahiş edir.

Novo Nordisk şirkəti bu vəziyyəti yaxından izləyir və Ozempik® preparatının saxtalaşdırılması ilə bağlı məlum olan istənilən informasiyanın təqdim edilməsinə görə əvvəlcədən minnətdarlığını bildirir.

# Təhlükəli preparat Azərbaycana idxal edilməyib

**Hindistan istehsalı olan, Özbəkistanda 18 uşağın ölümünə səbəb olmuş «Doc-1 Max» siropu Azərbaycanda qeydiyyatdan keçib, lakin ölkəyə idxal edilməyib.**

Bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən (AEM) məlumat verilib.

AEM-dən bildirildiyinə görə, Özbəkistanda keçirilən laborator tədqiqatların gedişində «Doc-1 Max» preparatının tərkibində toksik maddə olan etilenqlikol aşkarlanıb: «Etilenqlikol və dietilenqlikol əczaçılıqda mikroskopik dozalarda istifadə edilir. Onların əsas istifadə sahəsi isə partlayıcı maddələrin, antifrizlərin, şüşə təmizləyici mayelərin, bəzi plastmas materialların istehsalıdır. Kəskin respirator virus infeksiyalarının müalicəsi zamanı təyin edilən bu preparatın Azərbaycanda qeydiyyata alınmış tərkibində köməkçi maddə kimi toksik etilenqlikol maddəsi deyil, təhlükəsiz olan propilenqlikol istifadə olunub. Ümumilikdə, tərkibində etilenqlikol və dietilenqlikol olan uşaq siropları Azərbaycanda qeydiyyata alınmayıb».




Qeyd edək ki, Özbəkistan Səhiyyə Nazirliyi 18 uşağın Hindistanın Marion-BiotechPvtLtd. şirkətinin istehsalı olan «Doc-1 Max» siropunun istifadəsindən sonra vəfat etməsi barədə məlumat yayıb. Siropun bir partiyasının tərkibində toksik etilenqlikol maddəsi aşkarlanıb. Lakin indiyədək tam müəyyənləşdirilməyib ki, ölümün səbəbi toksik maddə, yoxsa dərmanın dozasının aşması olub. Preparatı 6 yaşdan kiçik 21 uşaq qəbul edib. Onlardan yalnız üçünün həyatını xilas etmək mümkün olub. Özbəkistanda «Doc-1 Max» preparatı reseptsiz satılıb. Halbuki qonşu Qırğızıstanda bu dərman qadağan olunub.

Buna qədər Qambiyada da belə faciəvi hadisə baş verib. Orada ən azı 70 uşaq vəfat edib. Nyu-Dehlidə yerləşən MaidenPharmaceuticalsLtdşirkəti və Hindistan hökuməti isə dərmanın təhlükəli olması haqqında iddiaları rədd edirlər.

# Meymunçiçəyinə 110 ölkədə 80 mindən çox yoluxma qeydə alınıb

**ÜST tərəfindən adı dəyişdirilən və hazırda empoks (mpox) adlandırılan meymunçiçəyi xəstəliyinə əsasən Mərkəzi və Qərbi Afrikanın tropik yağış meşələri bölgələrində rast gəlinir. Lakin 2022-ci ildə empoksun yayılması dünyanın digər hissələrində də müşahidə olunub.**

AZƏRTAC bildirir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) «İctimai səhiyyə 2022-ci ildə» icmalında deyilir.

May ayında ÜST bu xəstəliyin yayılmasının COVID-19 pandemiyasını xatırladacağı ilə bağlı narahatlığı aradan qaldırmağa çalışıb və qeyd edib ki, yoluxanların əksəriyyəti müalicə olunmadan bir neçə həftə ərzində sağalır.

Lakin dünyada yoluxma hallarının sayının artması ilə əlaqədar olaraq ÜST iyul ayında bəyan edib ki, hazırda empoks «ictimai səhiyyə sahəsində beynəlxalq əhəmiyyət kəsb edən fövqəladə vəziyyət» kimi təsnif olunur.

Avqustda ÜST-nin yüksək vəzifəli əməkdaşlarından biri qeyd edib ki, beynəlxalq birlik yalnız inkişaf etmiş ölkələrdə yoluxma hallarının sayının artmasından sonra empoksla maraqlanıb.

Noyabrın sonunda ÜST xəstəliyin adı ilə əlaqədar irqçi və damğalayıcı fikirlər haqqında məlumatlara istinad edərək elan edib ki, bundan sonra «meymunçiçəyi»ni empoks adlandıracaq.

Dekabr ayına qədər 110 ölkədə bu xəstəliyə 80 mindən çox yoluxma halı qeydə alınıb, 55 nəfər ölüb.

Azərbaycanın tibbi strukturlarının məlumatlarına görə, ölkədə empoks xəstəliyinə yoluxma halı qeydə alınmayıb. Səhiyyə Nazirliyinin müraciətinə əsasən ÜST Azərbaycana 3000 diaqnostik test gətirərək, onları Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə təhvil verib.

# MDB ölkələrinin ekspertləri ictimai səhiyyə üzrə əməkdaşlığı müzakirə ediblər



Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Dövlətlərarası ictimai səhiyyə və səhiyyə informasiyası Təsisatları Şəbəkəsinin iclası keçirilib.

AZƏRTAC MDB İcraiyyə Komitəsinin mətbuat xidmətinə istinadla xəbər verir ki, iclas iştirakçıları təşkilati-kadr məsələlərini müzakirə edib, İdarəetmə Şurasını formalaşdırıb, təsisatlar şəbəkəsinin sədrini seçiblər.

Qeyd etmək lazımdır ki, təsisatlar şəbəkəsində sədrlik rotasiya prinsipi əsasında növbə ilə hər bir iştirakçı dövlət tərəfindən həmin dövlətin nümayəndəsinin şəxsində həyata keçirilir. 2023-cü ildə şəbəkənin işi Qırğız Respublikasının sədrliyi ilə həyata keçiriləcək.

«Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əhalisinin sağlamlığı» Strategiyasının reallaşdırılması məsələlərinə xüsusi diqqət yetirilib. Qeyd edilib ki, bütün dünyada qeyri-infeksion xəstəliklərin artması müşahidə olunur. Bütün ölüm hallarının təqribən 70 faizinə səbəb bu xəstəliklərdir. Bununla əlaqədar, həmin sənədin reallaşdırılması ilə bağlı milli hədəf indikatorlarının monitorinqi və təhlili MDB üzvü olan dövlətlərin səhiyyə nazirlikləri tərəfindən xüsusi nəzarətdədir. Bu mövzu Şəbəkənin İş Planına daxil edilib. İşin yekununa dair məruzə MDB-də səhiyyə sahəsində əməkdaşlıq şurasının üzvlərinə təqdim ediləcək.

İdarəetmə Şurasının üzvləri bu il üçün İş Planı tərtib ediblər. Səhiyyə sistemlərinin kadr təminatı və fasiləsiz tibbi təhsil, ilkin tibbi-sanitar yardımın səmərəsinin artırılması və bir sıra başqa məsələlərə xüsusi diqqət yetiriləcək.

# Antonio Quterreş: «COVID-19 son epidemiya deyil»

**COVID-19 heç də bəşəriyyətin üzləşməli olacağı son epidemiya və ya pandemiya deyil. Dünya birliyi olaraq biz COVID-19-un ağır təsirindən nəticə çıxarmalı, pandemiyaların aradan qaldırılmasına və onlara qarşı mübarizəyə hazırlığı təmin etmək üçün tədbirlərə böyük həcmdə investisiya etməliyik.**



Bu barədə BMT-nin Baş katibi Antonio Quterreş Beynəlxalq Epidemiyalara Hazırlıq Günü münasibətilə müraciətində deyib.

Antonio Quterreş COVID-19-un faciəli nəticələrə səbəb olduğunu vurğulayıb. O, hazırkı pandemiyadan dərs götürməyə və gələcəkdə bu cür fövqəladə hallara hazır olmaq üçün tədbirlər görməyə çağırıb. Baş katib xatırladıb ki, virus bir neçə milyon insanın həyatına son qoyub, xəstəliyə yoluxanların sayı isə yüz milyonlarladır. Bəzi ölkələrin iqtisadiyyatı məhv olub, səhiyyə sistemləri bütün imkanlarını səfərbər edib, maliyyə itkiləri isə trilyonlarla ABŞ dolları təşkil edir.

BMT Baş katibi qeyd edib ki, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün planlaşdırılmış templərlə müqayisədə geriləmə müşahidə olunur. İnkişaf etməkdə olan ölkələr isə tamamilə taleyin ümidinə buraxılıblar, çünki pandemiya zamanı onlara vaksinlərin, diaqnostika və müalicə vasitələrinin verilməsindən imtina edilirdi.

Antonio Quterreşin sözlərinə görə, bu gün epidemioloji nəzarətin yüksək epidemik potensialı olan virusları aşkar etməyə və onların yayılmasını izləməyə imkan verən, əvvəlkindən daha effektiv olan mexanizmləri tələb olunur. BMT başçısı qeyd edib ki, yaxşı təlim keçmiş, yaxşı təchiz olunmuş və yaxşı maaş alan tibb işçiləri sayəsində səhiyyə sistemləri daha möhkəm və sarsıntılara daha hazırlıqlı olmalıdır.

«Biz bütün ölkələr üçün vaksinlərə, müalicə və diaqnostika vasitələrinə, həyati vacib texnologiyalara bərabər çıxışı təmin etməliyik», - deyə Baş katib vurğulayıb. O, elmi bilikləri və faktlara əsaslanan informasiyanı dezinformasiya və yalançı «elm» ilə mübarizə aparmağa çağırıb.

Pandemiya ilə mübarizənin ayrı-ayrı ölkələr səviyyəsində aparıla bilməyəcəyini qeyd edən BMT rəhbəri bu mübarizədə beynəlxalq ictimaiyyətin birlik nümayiş etdirməli olduğunu söyləyib. “Mən bütün ölkələri səylərimizi dəstəkləməyə çağırıram ki, dünya birliyi səhiyyə sahəsində gələcək çağırışlarla qarşılaşmağa tam hazır olsun», — deyə Antonio Quterreş bildirib.

# ÜST: COVID-19 hər həftə on min insanın həyatına son qoyur

**COVID-19 ilə mübarizədə aşkar irəliləyişə baxmayaraq, təhlükənin tam aradan qaldırılması hələ mümkün olmayıb. Koronavirus infeksiyasının profilaktika, diaqnostika və müalicə tədbirlərinə çıxışda qeyri-bərabərlik hələ də qalmaqdadır.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus Cenevrədə keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, hər həftə dünyada on min nəfər COVID-19 səbəbindən vəfat edir. «Bu yalnız bizə məlum olan rəqəmlərdir. Real rəqəmlər, çox güman ki, qat-qat artıqdır», - deyə Tedros Gebreyesus qeyd edib. O deyib ki, son vaxtlar, xüsusilə mövsümi qripin dövr etdiyi şimal bölgələrində hospitalizasiya göstəriciləri də artıb.

«ÜST həmişəki kimi bütün dünya üzrə müalicəyə əlçatanlığı asanlaşdırmağa çalışır», - deyə təşkilatın başçısı bildirib.

ÜST ekspertləri SARS-CoV-2-nin genom sekvensiyası barədə Çin tərəfindən təqdim olunan məlumatı tədqiqləyiblər və narahatçılığa səbəb ola biləcək yeni variantları aşkar etməyiblər. 30 ekspertdən ibarət olan Texniki məşvərət qrupunun görüşündə xəstəliyə yoluxma hallarının artdığı Çində COVID-19 ilə bağlı vəziyyət müzakirə edilib. Sekvensiya məlumatlarına əsasən, COVID-19-a yoluxma hallarının 97,5 faizinə səbəb “omikron”un BA.5.2 və BF.7 variantları olub. ÜST koronavirusun mümkün təhlükəli mutasiyalarını qaçırmamaq üçün Çində epidemioloji vəziyyəti bundan sonra da izləmək niyyətindədir və bu ölkənin rəsmilərini müvafiq tədqiqatlar aparmağa və məlumatı vaxtlı-vaxtında paylaşmağa çağırır.

Tedros Gebreyesus bildirib: «Biz bir daha Çindən hospitalizasiya və ölüm halları barədə operativ və yoxlanılmış məlumatın mütəmadi olaraq təqdim edilməsini, eləcə də genom sekvensiyasının real zaman rejimində və daha tam formada aparılmasını xahiş edirik. ÜST Çin əhalisinə təhdidlərdən çox narahatdır və xatırladır



ki, «buster» dozası da daxil olmaqla, vaksinasiya çox vacibdir. Vaksinasiya hospitalizasiyadan, xəstəliyin ağır keçməsindən və ölümdən müdafiə edir». ÜST başçısının sözlərinə görə, bu xüsusilə yaşlı pasiyentlərə və xroniki xəstəliklərdən əziyyət çəkən insanlara aiddir.

Yeni variantlara gəldikdə, hazırda ekspertlər «omikron»un bir neçə altnövünü izləyirlər. ÜST-nin mütəxəssisi Mariya Van Kerkhovenin sözlərinə görə, əsas meyar bu və ya digər ştamın nə dərəcədə yoluxucu olması, eləcə də keçirilmiş xəstəlik və ya peyvəndlə təmin edilmiş immun müdafiəni nə dərəcədə keçməyə qadir olmasıdır. «Virus nə qədər çox yayılsa, mutasiya təhlükəsi daha çoxdur», - deyə o qeyd edib.

Hazırda ÜST xəstəliyə yoluxma hallarının artacağını gözləyir, lakin ölüm hallarının artması proqnozlaşdırılmır, çünki mövcud vasitələr hələ də xəstəliyin ağır gedişindən və ölümdən qoruyur.

Bundan başqa, Mariya Van Kerkhovenin sözlərinə görə, bir çox ölkədə digər respirator viruslar da dövr edir, insan sıxlığını nəzərdə tutan bayram tədbirləri ilə əlaqədar isə xəstəliyə yoluxma hallarının göstəriciləri, çox güman ki, artacaq.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Milli Onkologiya Mərkəzi

*Kimyaterapiya bölməsinə:*
Rəhbər - 1.0 («onkologiya» ixtisasında tibb üzrə fəlsəfə doktoru)

*Molekulyar onkologiya laboratoriyasına:*
Rəhbər - 1.0 (biologiya üzrə fəlsəfə doktoru)

*Uşaq onkologiya bölməsinə:*
Böyük elmi işçi - 1.0 («onkologiya» ixtisasında tibbelmləri doktoru)

*Ünvan: H.Zərdabi küç., 79b*
*Telefon: 537-08-11*

### Qaradağ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 2.0

*Ünvan: Nərimanov küç., 20.*
*Telefon: 445-21-63*

### Bərdə Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 3.0
Feldşer-laborant - 2.0
Həkim-epidemioloqun köməkçisi - 5.0

*Ünvan: S.Vurğun küç.*
*Telefon: (02020) 5-18-33*

### Salyan Rayonlararası Psixiatriya Xəstəxanası

Laborant - 1.0
Əmək terapiyası üzrə təlimatçı - 2.0

*Ünvan: Şorsulu kəndi.*

### Nərimanov Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: A.Heydərov küç., 26a*
*Telefon: 567-20-34*

### Masallı Rayon Dezinfeksiya Stansiyası

Həkim-entomoloqun köməkçisi - 1.0

*Ünvan: Həzi Aslanov küç.,14*
*Telefon: (02521) 5-53-71*

### Ağdam Ruhi Əsəb Xəstəlikləri Dispanseri

Tibb bacısı (qardaşı) - 2.0
Rentgen-texnik - 1.0
Əmək terapiyası üzrə təlimatçı - 1.0

*Ünvan: Quzanlı qəs.*
*Telefon: (02632) 5-00-41*

### Abşeron Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-parazitoloqun köməkçisi - 1.0

*Ünvan: H.Əliyev pr., 39*
*Telefon: 342-09-40*

### Tovuz Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0
Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Aşağı Öysüzlü kəndi.*
*Telefon: (02231) 5-69-63*

### «Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ

Sanitar-feldşer - 1.0

*Ünvan: A.Manaf küç., 22.*
*Telefon: 421-63-41*

### Elmi - Tədqiqat Tibbi Bərpa İnstitutu

*Fiziki üsullarla müalicə*
Şöbə müdiri - 1,0
Terapiya bölməsi, kiçik elmi işçi - 1,0

*Ünvan: Xətai pr., 3*
*Telefon: 496-07-06*

## Dünyada ilk dəfə qalxanabənzər vəzidən alınan kök hüceyrələr paratiroid vəzinin hüceyrələrinə çevrilib

**Türk alimin kəşfi orqan çatışmazlığının müalicəsində yeni səhifə açıb. Belə ki, qalxanabənzər vəzidən alınan kök hüceyrələr dünyada ilk dəfə başqa bir orqanın — paratiroid vəzinin hüceyrələrinə çevrilib.**

AzərTAC medimagazin.com saytına istinadla bildirir ki, Türkiyənin Yeditepe Universitetinin Koşuyolu Xəstəxanasının cərrah-endokrinoloqu, professor Erhan Ayşanın rəhbərliyi ilə multidisiplinar tədqiqat qrupu tərəfindən aparılan araşdırmada sağlam qalxanabənzər vəzidən əldə edilən kök hüceyrələr müxtəlif laboratoriya proseslərindən keçərək tamamilə fərqli bir orqanın hüceyrələrinə çevrilib.

Araşdırmanın nəticəsi beynəlxalq miqyasda nüfuzlu elmi jurnalda nəşr olunub və tibbi ədəbiyyata daxil edilib.

Professor bildirib ki, bu, transplantologiya üçün vacib kəşfdir: «Eyni şəxsin qalxanabənzər vəzindən alınan kök hüceyrələrlə ediləcək transplantasiya zamanı donor tapmağa ehtiyac qalmayacaq. Bundan əlavə, əməliyyatda həmin şəxsin öz toxuması istifadə edildiyi üçün transplantasiyanın müvəffəqiyyət nisbəti artacaq, toxuma uyğunsuzluğu problemi olmayacaq».

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./fak: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065
Tiraj: 9650